GÜNEY AZƏRBAYCAN QURTULUŞ PARTİYASI
SOUTH AZERBAIJAN FREEDOM PARTY

www.qurtulush.se

qurtulush.partiyasi@gmail.com

## Həftəlik Yorum!

## (4)

## 2008-12-11

Orjinal mətni sancaqdan alınız lütfən

# BAKI DİPLOMATİ, YOXSA TEHRAN MƏMURU!?

Sözsüz ki, bölgəmizlə bağlı ötən həftənin ən önəmli olaylarından Camu-Keşmirin ulusal haqlarını öz aralarında sömürgə yarışına çevirən Hindustan və Pakistan probleminin terrorlar qiyafətində bir daha atəşlənməsi idi. Yeri varidi bu haqda düşüncələrimizi sizinlə paylaşaq. Lakin, özümüz belə istəmədən, bizi, özərinə çəkən bir kiçik qafanın böyük oyuna girməsi oldu. Belə ki, dekabrın 3-də Azərbaycanın İran İslam Respublikasındakı (üzdənıraq) səfiri Abbasəli Həsənov İranın Mehr Agentliyinin hizmətində olub, 50 milyonluq bir millətin varlığını danaraq 35 milyonluq Azərbaycanın Güney bölümünü və Elçibəyi yerdən-yerə vurdu. Üzdənıraq Səfir, Azərbaycanımızın varlığına inanmaq istəməyən düşmən fars dövlətində diplomatik görəvindən aşaraq böyük Elçibəyin Bütöv Azərbaycan İdeyasına ədəbsizlik göstərərək, Güneyin şəhərlərində varlıq ruhu kimi dolaşan Bütövçülük məfkürəsini İran-Azərbaycan dostluğu qarşısında düşmən düşüncə adlandırdı. Bu üzdən bu həftəki yorumumuzu böyük mənsəbdə oturan bir kiçik adamın xayın davranışına özəlləşdirmək gərəyində qaldıq.

Biz, Güney Azərbaycan Qurtuluş Partiyası olaraq Bakının Tehran səfirinin öz kişiliyi və dünya görüşü ilə ilgilənmirik. Yalnız, bu səfirin hər bahana üzündən çıxıb Azərbaycanın bütövlük ruhunu zədələməsi və öz millət və vətəninə qarşı Tehran Panfaşist fars rejimilə əməkdaşlıq etməsi hər kəsin rahatsızlığına səbəb olduğu kimi, bizi də etgiləyir. Uzdənıraq səfirin, belə cəsarətlə milli suç işləməsinin arxasında nə kimi hesab-kitablar yatmaqdadır? Sözsüz ki, bu milli suçun cavabını yalnız suçlu səfir deyil, onu bu ağır sorun səndəliyəsində oturdan şəxslər də verməlidirlər. Belə bir

xayin şəxsin əziz dövlətçiliyimizin təmsilçisi kimi işləməsinə hələ də şərait yaradanların suçu, səfir qədərdir. Deyilmi!?

A. Ə. Həsənov Mehr İnformasiya Agentliyinə verdiyi ilginc tapşırıqda (buna müsahibə deyilməz!) deyir: ***«Yalnız İranla Azərbaycanın düşmənləri münasibətlərimizin zəifliyinə sevinirlər».*** Bakının Tehrandakı səfirinin deyiminin ardında düşmənin kim olduğunu da aydıncasına bəlirlənir. O, deyir: ***«Təəssüf ki, o dövrdəki davranışların, hərəkətlərin mənfi təsiri bu günə qədər qalmaqdadır. Bu isə əlaqələrimizin genişlənməsinə mane olur. Biz başqa ölkələrin daxili işlərinə qarışmamaq barədə öhdəlik götürmüşük. Lakin Elçibəyin püxtələşməmiş hökuməti Cənubi və Şimali Azərbaycanın birləşməsi haqda əsassız şüarlar səsləndirərək Bakı ilə qonşu ölkələr arasında münasibətləri korladı».*** Dünya Azərbaycanlılarının Həmrəylik gününün yaranmasının 10-ci il dönümü ərəfəsindəyik. 1989-cu ilin yanvar gecəsindən Başlayaraq: ***”Azərbaycan Bir Olsun, Mərkəzi Təbriz Olsun!”- ”Azərbaycan bir olsun düşmənləri məhv olsun!”*** kimi bütövlük ruhu daşıyan minlərlə insanımızın harayından qopan şüarları Elçibəymi kəşf etmişdir!? Bəlli olan, Səfirin düşmən adlandırdığı Arazın hər iki tayında bütövlük ruhu sərgiliyən millətimizdir. Lakin, səfir millətlə Elçibəyi bir-birindən ayıra bilmədiyi üçün sərsəm faturasını millətin sevdalısına kəsir. 2006.03.16-da Azərbaycan Prezidenti İ. Əliyev Bakıdaki 2500 nəfərlik 2-ci Dünya Azərbaycanlıları Qurultayında, 50 milyonluq Azərbaycanın azad vətənindən söz açarkən Elçibəyin sözlərini təkrarladı. Prezidentin ***“Biz 50 milyonluq böyük bir xalqıq”*** sözlərinin Elçibəy düşüncəsilə eyn olması da heç yoruma ehtiycı olmaz qədər aydındır. Belə olan halda, Səfirin zehniyyətinə görə, İlham Əliyev də, İran - Azərbaycan münasibətlərini korlayan düşməndir! Səfirə görə, kim Tehran faşistlərinə qarşı danışarsa kəsinliklə aravuruşdıran düşmən sayılmalıdır. Səfir, burda da qalmayıb yenə söyləyir: ***«Azərbaycanla İsrail arasında əlaqələr Elçibəy dövründən başlandı. Lakin son 17 ildə, Azərbaycan öz müstəqilliyinə qovuşandan indiyədək Azərbaycan rəsmilərindən heç kim İsrailə səfər etməyib».*** Savadsız məmurun gülünc iddialarına tərs olaraq, Azərbaycanın dövlət verilərinə (status) görə, Azərbaycanla İsrail arasında hər gün yüksəlməkdə olan kənd və sənaye ilgiləri vardır. Azərbaycan bir müstəqil dövlət olaraq istədiyi ölkələrlə siyasi, iqtisadi, sosial və diplomatik ilişgilər qura bilməlidir. Azərbaycan-İsrail ilişgiləri bu iki dövlətin iradəsinə bağlı olan bir məsələdir. Nə üçün Azərbaycan bu haqda İrandan izin almalıdır? Məgər iran Ermənistanla hər hansı ilişgisində Azərbaycandan izin almaqdadır? Səfirin bu davranışı rəsmən bir müstəmləkə olmuş ölkənin iztirablı diplomatının çılpaq hərəkatının örnəyidir. Bu münasibətlərin başlanqıcını Elçibəyin hakimiyyətinə bağlanmasının əsas səbəbi isə, Səfirin Tehran rejimi qarşısında naşıca xoşrəqsliyinin göstərgəsidir. Səfirin, bu mesajlı deyiminin bir yönü də Bakıyadır. Abbas Əli Həsənov, Bakı rəsmilərinə verdiyi mesajda Tehranın tam himayəsində olduğunu göstərərkən Bakıya çağırılan zaman İran dövlətinin rahatsız olacağını da deməkdədir. Belə gərgin durumda bu kiçik insanın böyük oyuna girməsinin nədəninə bir də Panfaşist fars rejimin baxış açısından baxalım:

a) Gündən-günə dərinləşməkdə olan Güneyin Milli qurtuluş savaşının iradəsini özləri əlilə sarsıtmaq gərəkməkdədir. əlimizdə Azərbaycan səfiri kimi məmur varkən nədən yararlanmayaq!

b) A.Ə.Həsənov kimi ucuz məmuru işə salmaqla, Azərbaycanın diplomatik pəncərəsindən Güneylə-Quzeyin mənəvi bağlarını qırmaq lazimdir. Bu çox

ağıllı və həzinəsiz siyasətdir. Mollalar vaxtıyla bu siyasəti – Ara qarışdır, hakim ol! – Anglosakson ərbablarından öyrənmişdirlər.

c) Azərbaycan Türklüyünün milli-siyasi fəlsəfəsinin 50 milyonluq bir ulus üzərində qurulmasının sonucu Bütöv Azərbaycan Dövlətçiliyinə yönəlik bir dünya görüşü və Türk kökənli bir kəsinlikdir. İrançılıq məfkürəsinin yaşaması Azərbaycan Türklüyünün aradan qaldırılmasıyla yaşayabiləcəkdir. Bütövlük və Türklük məfkürəsilə Elçibəy adı yan-yana gəlincə, sorumun yalnız zehni deyil, yaşamış eyniyyəti də ortaya çııxr. Bu üzdən, sürəcli anti Elçibəy propakantası sürdürülməli və gənc Türklərin qafasını bütövlük düşüncəsindən uzaqlaşdırmaq gərəkir. Əks təqdirdə, Güneydə gedən Milli Hərəkatın Bütövlük məfkürəsinə sahib çıxmasıyla İrançılıq və farsçılıq hegomonluğu yaxın zamanlarda aradan gedəcəkdir..

d) Azərbaycan varlığına qarşı, Tehran hakimlərinin qondarma və cahil arzularına diplomatik körnəyi girdirərək sürəc qazandırmaq yalnız satqın və manqort azərbaycanlılar tərəfindən həyata keçirilə bilər. A. Həsənov bu haqda həqiqətən ən inanmalı məmurlardan biridir.

e) Azərbaycanın keçmiş səfirləri olaraq Tehranda milli dövlətçiliyimizin təmsilçisi olan iki alicənab və vətən sevər – Nəsib Nəsibli və Əlyar Səfərli - kimi bilgin, tarixçi və yüksək öyrətmən diplomatların yerinə A.Ə. Həsənov kimi milli-siyasi boşluq içində çabalayan birinin qorunması su kimi vacibdir. Bu Tehran başçılarının unudulmaz görəvi olmalıdır.

**Sonuc:** son günlərdə 50 milyonluq bir millətin aydın kəsiminin ciddi tədirginliyinə səbəb olan A.Ə.Həsənovun davranışlarının Bakı rəsmilərinə də təsirsiz olmaması görünməkdədir. 50 milyonluq vahid millətdən danışan İ.Əliyevin düşüncəsini İran – Azərbaycan dostluğunu korlayan düşmən düşüncəsi adlandıran bir səfirin hansı diplomasiyanı irəli sürməsi çox böyük SORU ƏLAMƏTİ olaraq qalmaqdadır. Bizcə, dövlət başçımız dərhal onu Tehrandan çağırmalı Tehran hakimlərinə deyil, Azərbaycan ədalət məhkəməsinə təslim etməlidir. Əks halda, 35-milyonluq Güney soydaşların yaralı ürəyi bir daha incitiləcəkdir. A.Həsənov kimi məlum şəxsin Azərbaycan Səfiri ünvanında Tehranda oturması həm də, Ölkəmizin gizli bilgilərinin bir başa düşmən rejimə təslim olması təhlükəsini daşımaqdadır. Güney bir yana qalsın, Bakı rəsmiləri dövlətin çox gizli sırlarını necə belə adamın əlinə verə bilər!?

Güney Azərbaycan Qurtuluş Partiyası, bir bütövçü və ulusçu siyasi hərəkət olaraq hər zaman dövlətçiliyimizdən yana olmuş, dövlətimizin nalayiq məmurlar üzündən təklənməsinə və millətdən qopmamasına razı olmaz. Biz, bir daha bu məmurun dərhal Bakıya çağrılmasını və milli suç üzündən məhkəməyə sövq edilməsini dilərik.

Güney Azərbaycan Qurtuluş Partiyası

Siyasi Bölüm

2008-12-11